# *TƏHSİLİN İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ*

## TƏLƏBƏ ÖZÜNÜİDARƏSİ SOSİAL FƏALLIĞIN FORMALAŞDIRILMASININ VASİTƏSİ KİMİ

**Rüxsarə Əliyeva,**
*Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecinin direktoru*
*pedaqogika üzrə fəlsəfə doktoru*
E-mail: ruxsare_aliyeva@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli

***Açar sözlər***: *fəallıq, sosial fəallıq, tələbələr, özünüidarə, tələbə özünüidarəsi sosial fəallığın formalaşdırılması*

***Ключевые слова***: *активность, социальная активность, студенты, самоуправление, самоуправление студентов, формирование социальной активности*

***Keywords***: *activity, social activity, the students, self-management, self-management of students the formation of social activity*

Orta ixtisas məktəbləri tələbələrində sosial fəallığın formalaşdırılması bu işin təhsilalanların müstəqilliyi, təşəbbüskarlığı, təşkilatçılıq bacarığının, istedadının, özünüidarəsinin nəzərə alınmasını tələb edir. Bu sahədə tələbə özünüidarəsi mühüm rol oynayır. Özünüidarə:

1. Kollec tələbələrinin məqsədyönlü, planauyğun və sistemli fəaliyyətidir.

2. Fəal həyat və fəal vətəndaşlıq mövqeyinə malik hərtərəfli və ahəngdar inkişaf etmiş yaradıcı şəxsiyyətin formalaşmasına, əmək bazarında rəqabətəqabil mütəxəssislərin hazırlanmasına yönələn tərbiyə işinin səmərəli formasıdır.

3. Tələbələrin həyatının ən mühüm məsələlərinin həllinə, onların sosial inkişafına yönələn təşəbbüskarlığının, müstəqilliyinin, məsuliyyətli ictimai fəaliyyətinin özünəməxsus formasıdır.

4. Azərbaycan Respublikasında gənclər siyasətinin formalarından biridir.

5. Tələbə ictimai hərəkatının səmərəliliyi məqsədilə cəmiyyətin sosial-iqtisadi baxımdan yenidən qurulmasında, tələbə problemlərinin həllində təhsilalanların imkanlarından maksimum istifadə olunması formalarından biridir.

Kollecdə tələbə özünü idarəsi iki şəkildə təşkil olunur: ümumkollec və ayrı-ayrı qruplar üzrə. Tələbə özünüidarəsinin ali orqanı kollecin tələbə fəallarının konfransıdır. Fəallar kollecin tələbə şurası tərəfindən seçilir. Tələbə özünüidarəsinin fəaliyyətinin əsas mexanizmini kollektiv yaradıcı fəaliyyət təşkil edir. Tələbə özünüidarəsinin fəaliyyətinin məzmununu bir sıra önəmli layihələrin həyata keçirilməsi təşkil edir. Həmin layihələr üzrə tədbirlərin təşəbbüskarları, təşkilatçıları və həyata keçirənlər tələbələrin özləri olurlar.

Tələbə özünüidarəsi bir sıra əlamətlərə malikdir. Qabaqcıl kolleclərdə aşağıdakı əlamətlər diqqət mərkəzində dayanırdı:

1. Məqsədyönlülük – tələbənin özünüidarə orqanını özünün şəxsi fəaliyyətinin və inkişafının məqsədi hesab etməsi, könüllü fəaliyyətini kollecin əsas məqsədləri ilə, dövlətin gənclər siyasəti ilə uzlaşdırmaq qabiliyyətini; fəaliyyətinin nəticəsini, məqsədə çatmağın səmərəli yollarını aydın başa düşməsini, diqqət mərkəzinə gətirir.

2. Muxtariyyət – kollektivin fəaliyyətinin məqsədlərinin və vəzifələrinin qoyuluşunda, onun əsas istiqamətlərinin işlənib hazırlanmasında; fəaliyyətin motivasiyasının və məqsədlərinin, nəticəyə nail olma vasitələrinin, həyata keçirilmə yollarının seçilməsində müstəqillik və qeyri-asılılıq.

3. Müstəqillik – kollec rəhbərliyindən maliyyə və hüquqi baxımdan asılı olmaması.

4. Özünüidarə orqanlarının mövcudluğu tələbə özünüidarəsinin hər bir səviyyəsində

onun orqanlarının yaradıla bilməsini mümkün hesab edir.

5. Sistemlilik - fəaliyyətin sistemli təşkili.

6. Kollecin idarə olunmasında iştirak – kollecin pedaqoji şurasının işində iştirak.

7. Özfəaliyyət – təşkilatın idarəetmə funksiyasının (fəaliyyətin planlaşdırılması, iştirakçıların təşkili, motivləşdirilməsi, nəzarət və rəhbərlik) yerinə yetirilməsini, qəbul edilmiş qərarların icrasını nəzərdə tutur.

3. Xarici mühitlə əlaqələr – kollecin idarəetmə orqanları ilə, pedaqoji kollektivlə, təsərrüfat xidməti ilə, başqa təhsil müəssisələri, ictimai və dövlət təşkilatları ilə qarşılıqlı münasibətlərdə öz ifadəsini tapır. Xarici mühit kimi tələbə özfəaliyyətinin müxtəlif formaları, gənclər və tələbə təşkilatı, maraq klubu, idman bölmələri nəzərdə tutula bilər.

Orta ixtisas məktəblərində tələbə özünüidarəsi müəyyən prinsiplərə əsaslanaraq öz fəaliyyətini qurur. Həmin prinsiplər tələbə özünüidarəsinin əsas konsepsiyası hesab olunur. Bu prinsiplər kollecin tələbə özünüidarəsinin ən mühüm və səciyyəvi xüsusiyyətlərini, onun digər tələbə təşkilatlarının formalarından fərqlənən əlamətlərini müəyyən edir və tələbə özünüidarəsinin mahiyyətin haqqında düzgün təsəvvür formalaşdırır.

Qabaqcıl kolleclərdə (məsələn, Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecində) özünüidarə orqanları tələbələrdə sosial fəallığın formalaşdırılması məqsədilə yuxarıda müəyyən etdiyimiz prinsiplərlə yanaşı sırf özünüidarə orqanlarına xas olan və onların özlərinin seçdikləri bir sıra səciyyəvi prinsiplərdən faydalanırdılar. Onları diqqətə çatdıraq:

1. Birgəlik prinsipi. Bu prinsip tələbə özünüidarəsi tələbə həyatının keyfiyyətinin yüksəldilməsi üzrə məsələlərin birlikdə həll edilməsi məqsədilə kollec tələbələrinin könüllü birliyidir ideyasını rəhbər müddəa kimi dəyərləndirir. Bu birlik özünüidarə fəallarına kollecin tələbə həyatının idarə olunmasında fəal iştirak etmək, özünütəsdiq və inkişaf üzün özünüidarənin geniş imkanlarından faydalanmaq hüququ verir.

2. Könüllülük prinsipi. Tələbələr özünüidarə orqanlarında iştirak edib-etməmək qərarını könüllü surətdə qəbul edirlər.

3. Rəsmiyyətçilik prinsipi. Bu prinsip tələbə özünüidarənin Nizamnaməsində göstərilən missiyanın, məqsədlərin, vəzifələrin və təşkilati strukturun vahidliyini müəyyən edir. Nizamnamə tələbə birliyinin əsas qanunu olmaqla kollec tələbələrinin konfransında qəbul edilir.

4. Dövlətçilik prinsipi. Tələbə özünüidarəsi öz fəaliyyətini Azərbaycan Respublikasının Gənclər siyasətinə uyğun olaraq qurur.

5. Diqqət mərkəzində olmaq prinsipi. Tələbə şəxsiyyətinin və kollecin tələbə həyatının inkişafı tələbə özünüidarəsinin diqqət mərkəzindədir.

6. Sistemlilik prinsipi. Tələbə özünüidarəsi öz fəaliyyətini müəyyən sistem əsasında qurur. Azərbaycan Respublikasının Gənclər siyasətinin reallaşmasına sistemli yanaşma tələbə özünüidarəsinə kollecin tərbiyə funksiyasının həyata keçirilməsinin mühüm vasitəsi kimi yanaşır. Bu, o deməkdir sistemli yanaşma tələbə birliyinin, nizamnamə məqsədlərinə nail olmaq üçün tələbə özünüidarənin struktur bölmələrinin fəaliyyətinin və qarşılıqlı əlaqələrinin məqsədyönlü, sistemli və tənzimlənən, nizamlanan proses kimi nəzərdən keçirir.

7. Seçki prinsipi. Kollecdə tələbə özünüidarəsinin rəhbər orqanları seçki əsasında formalaşdırılır.

8. Xidmət prinsipi. Özünüidarənin rəhbər orqanlarına seçilmiş təhsilalanlar tələbə birliyinin işində yaxından, fəal şəkildə iştirak edəcəklərinə, özünüidarənin məqsəd və vəzifələrinə xidmət edəcəklərinə and içirlər.

9. Nümayəndəlik prinsipi. Özünüidarənin rəhbər orqanlarında təmsil olunan tələbə oğlan və qızlar kollec tələbələrinin adından, onların tapşırıqları əsasında və mənafelərinə uyğun olaraq üzərlərinə düşən vəzifələrini yerinə yetirirlər.

10. Müxtariyyət prinsipi. Tələbə özünüidarəsi öz fəaliyyət istiqamətlərini və qaydalarını müstəqil şəkildə planlaşdırır və öz qərarlarında kollecin rəhbərliyindən və digər şəxslərdən asılı deyildir.

11. Korporativ (*müəyyən fəaliyyətə mənsub şəxslərin birləşməsi*) prinsip. Tələbə özünüidarəsi korporativ mədəniyyətin tərkib hissəsidir. Odur ki, orta ixtisas məktəbindən kənarda mövcud deyil. Tələbə özünüidarəsi kollecin tarixi, dəyərləri və ənənələri ilə qırılmaz tellərlə bağlıdır.

12. Partnyorluq prinsipi. Tələbə özünüidarəsinin strateji əsasları və kollecin rəhbərliyi

partnyorluq xarakterinə malikdir. Bu məsələ həm kollecin, həmçinin tələbə özünüidarəsinin Nizamnaməsində öz ifadəsini tapır. Tərəflərin qarşılıqlı münasibətləri tələbə özünüidarəsi və kollecin rəhbərliyi tərəfindən imzalanan müqavilədə ifadə olunur.

13. Vahidlik və tamlıq prinsipi. Kollecin digər tələbə birlikləri tələbə özünüidarəsinin subyektləridir və öz fəaliyyətlərini tələbə özünüidarəsinin hüquqi sahəsi çərçivəsində və tələbə özünüidarəsinin Nizamnaməsinə uyğun olaraq həyata keçirirlər.

14. Resurs təminatı prinsipi. Tələbə özünüidarəsi öz Nizamnamə fəaliyyətini həyata keçirmək üçün tələbə özünüidarəsi ilə kollec rəhbərliyi arasında bağlanmış müqaviləyə uyğun olaraq təşkilati, maddi, intellektual, informasiya və digər resurslardan istifadə edir.

15. Təlim prinsipi. Tələbə özünüidarəsinin metodik və məsləhət xarakterli dəstəyə ehtiyacı olur. Bu, təbiidir. İstənilən qurum müəyyən kömək əsasında səmərəli fəaliyyət göstərir. Bunu nəzərə alaraq, tələbə özünüidarəsinə yardım məqsədilə xüsusi bölmə yaradılır. Həmin bölmənin əsas vəzifəsi təlim prosesidir. Ona görə də tələbə özünüidarəsi fəallarının təşkilati işlər və idarəetmə mədəniyyəti üzrə zəruri biliklərə, bacarıq və vərdişlərə yiyələnmələri qayğısına qalınır.

"Azərbaycan dilinin izahlı lüğəti»ndə özünüidarəyə belə tərif verilir: «Hər hansı bir təşkilatın, cəmiyyətin, təsərrüfat, yaxud inzibati vahidinin və s. öz daxili işlərini yerli qüvvələrlə həll etmə hüququ" (1, c. 3, 564).

Problemə pedaqoji nöqteyi-nəzərdən yanaşdıqda yuxarıdakı fikri aşağıdakı şəkildə ifadə etmək olar: özünüidarə dedikdə, təhsil müəssisəsinin, o cümlədən kollecin öz həyatını daxili qüvvələrlə, tələbələrin köməyi ilə təşkil etmə hüququ başa düşülür.

"Özünüidarə" anlayışı ilə bağlı olan "muxtariyyət", "müstəqil", "müstəqillik", "təşəbbüskar", "təşəbbüskarlıq", "təşkilatçı" və "təşkilatçılıq" anlayışlarına da aydınlıq gətirək. Bunun üçün yenə "Azərbaycan dilinin izahlı lüğət»ini nəzərdən keçirdik: "Muxtariyyət – daxili qanunvericilik və idarəetmə işlərində sərbəst olma hüququ; özünüidarə. Muxtariyyət tələb etmək (14, 394); müstəqil – 1. Başqasından asılı olmayan, başqasına tabe olmayan; sərbəst. 2. Özü-özlüyündə əhəmiyyətli olan, başqaları ilə bağlı olmayan, başqalarından ayrılan; ayrıca, xüsusi (1, 431); müstəqillik – müstəqil olma halı (1, 431-432); təşəbbüskarlıq – təşəbbüskar olma, təşəbbüs irəli sürmə; təşəbbüslük (2, 331); təşkilatçı – bir şeyi təşkil edən, təşəbbüsçü olan adam; təşkilatçılıq qabiliyyəti olan adam. İstedadlı təşkilatçı; təşkilatçılıq – təşkilatçı bacarığı, təşkil etmə bacarığı; təşkil etmə, təşkilatçılıq işi, təşkilatçılıq fəaliyyəti" (2, 332).

Özünüidarə orqanlarında hər bir tələbənin kollektivin köməyi ilə idarəetmə, asılılıq, tabeçilik, təşkiletmə münasibətlərinə yiyələnməsi üçün zəruri imkan olur. A.S. Makarenko bu xüsusda yazırdı: "Mən yalnız o kollektivi ən yaxşı kollektiv hesab edirəm ki, o, öz biliyini, vahidliyini, möhkəmliyini hiss etməklə bərabər eyni zamanda başa düşür ki, bu kollektiv sözü bir yerə yığıb toplanmış dostların məclisi deyil, ictimai bir hadisədir, müəyyən vəzifələri, borcu olan, müəyyən məsuliyyət daşıyan bir kollektiv, bir təşkilatdır" (3, 180).

Tələbə özünüidarəsinin məqsədi tələbələrin yaradıcı və peşəkar sferada fəaliyyətinin həyata keçirilməsinə və tələbə həyatının müxtəlif sahələrində problemlərin həllinə imkan verən şəraitin yaradılmasından ibarətdir.

Eksperimentə cəlb edilmiş kolleclərdə tələbə özünüidarə orqanları bir sıra funksiyaları yerinə yetirirdilər. Onları qeyd edək: 1) özünüfəallaşdırma; 2) fərdi və kollektiv şəkildə özünənəzarət; 3) təşkilati özünütənzimləmə.

1. Özünüfəallaşdırma funksiyası nəzərdə tutur ki, tələbə həyatının idarə olunması işinə özünüidarə orqanının daha çox üzvü cəlb edilsin.

2. Fərdi və kollektiv şəkildə özünənəzarət nəzərdə tutur ki, tələbə özünüidarə orqanları və onun ayrı-ayrı üzvləri öz fəaliyyətlərini müntəzəm şəkildə təhlil etsinlər, fəaliyyətdəki müsbət və qüsurlu cəhətləri aşkara çıxarıb, çatışmazlıqları, yol verilmiş qüsurları aradan qaldırsınlar, səriştəsizlik nümayiş etdirildiyi təqdirdə daha optimal yollar arasınlar, özünütəkmilləşmə ilə məşğul olsunlar idarəetmənin daha optimal yol və vasitələrini müəyyən etsinlər;

3. Təşkilati özünütənzimləmə nəzərdə tutur ki, özünüidarə orqanları üzvlərinin təşkilatçılıq fəaliyyətinin həyata keçirilməsində mütəşəkkil, fəal, çevik, səriştəli olsunlar, peşəkarlıq nümayiş etdirsinlər.

Məqsədə çatmaq qarşıda duran vəzifələr bunlardır:

- orta ixtisas məktəbinin tələbə fəalını formalaşdırmaq və təhsilləndirmək;

- özlərinə, cəmiyyətə, ətraf aləmə münasibətlər sahəsində təcrübənin zənginləşdirilməsi ilə bağlı tələbələrə kömək etmək;

- tələbə kollektivlərinə hərtərəfli dəstək vermək;

- hər bir tələbədə özünütəşkil, özünüidarə, özünütəkmilləşdirmə, özünüdəyişmə, özünənəzarət, özünəhesabat, özünə kənardan baxma, özünütərbiyə, özsünütəhsil, özünü kamilləşdirmə, özünün sosial dünyasını qurmaq tələbatı yaratmaq;

- tələbə özünüidarəsi mexanizmini təkmilləşdirmək;

- tələbələrin maraq və mənafeləri barədə kollecin rəhbərliyinə məlumat vermək;

- elmi, tədris və sosial fəaliyyəti zamanı fəallıq göstərmiş tələbələrin rəğbətləndirilməsinə görə kollecin pedaqoji şurası qarşısında məsələ qaldırmaq;

- tələbə gənclərin sosial-hüquqi problemlərinin həllinə kömək etmək;

- təlim prosesinin və tələbə gənclərin tədqiqat işinin səmərələşdirilməsinə dair təkliflər irəli sürmək;

-tələbələrin kollecdən xaric edilməsi, yaxud bərpa edilməsi, nümunəvi tələbələrin təhsilalmanın kommersiya formasından büdcə hesabına təhsilə cəlb edilməsi formasına keçirilməsi, yataqxanaya yerləşdirilməsi, yaxud yataqxanadan çıxarılması ilə bağlı orta ixtisas məktəbinin rəhbərliyi qarşısında məsələ qaldırmaq;

- özünüidarə vasitəsilə sosial əlaqələri genişləndirmək, hər bir tələbəyə sosial aləmə yaxından bələd olmaq bacarığı aşılamaq;

- hər bir tələbə şəxsiyyətinin təşəkkülünə nail olmaq, dünyagörüşünün formalaşdırılmasını təmin etmək üçün tələbə ictimai təşkilatlarının rolunu gücləndirmək;

- tələbələrlə kollec rəhbərliyi və təhsil müəssisəsinin struktur bölmələrinin rəhbərləri ilə qarşılıqlı əlaqəsinə nail olmaq;

- tələbə özünüidarə orqanlarının hüquqi, informasiya, metodik və digər resurs təminatını yaratmaq;

- tələbələrin sosial dəyərli təşəbbüslərini reallaşdırmaq məqsədilə sosialmədəni mühit formalaşdırmaq;

- demokratik həyat tərzini, sosial ədalət hissini, yüksək qarşılıqlı tələbkarlığı, məsuliyyət və cavabdehliyi, sağlam mənəvi-psixoloji iqlimi, tələbə kollektivində yüksək mənəvi dəyərləri inkişaf etdirmək;

- gənclərin tərbiyə problemlərinə dair ictimai fikri formalaşdırmaq və inkişaf etdirmək;

- kollecdən kənarda və müxtəlif səviyyələrdə (kolleclərarası, şəhər, regional, respublika və s. ) tələbə kollektivinin mənafelərini müdafiə etmək;

- özünüidarə fəaliyyətini hər bir tələbə oğlan və qızda fərdi həyat tərzi formalaşdırmağa yönəltmək;

- fəal vətəndaşlıq mövqeyi tərbiyəsi üzrə işin təşkilində və həyata keçirilməsində tələbə kollektivlərinin təşəbbüskarlığını inkişaf etdirmək;

- kollecdə tələbə birliklərinin fəaliyyətini əlaqələndirmək üzrə tədbirlər hazırlamaq və həyata keçirmək;

- özünüidarənin müntəzəm inkişafetdirici xarakter almasına nail olmaq;

- tələbə və gənclər problemləri üzrə kollecin rəhbərliyinə təkliflərin verilməsində təşəbbüslərlə çıxış etmək;

- tələbələrin müstəqil yaradıcı fəaliyyətini inkişaf etdirmək baxımından təlimin səmərəliliyini yüksəltmək, təkmilləşdirmək və optimallaşdırmaq;

- özünəhesabat, özünənəzarətin həyata keçirilməsi vasitəsi ilə kollektivin tapşırıqlarını yerinə yetirməyi hər bir tələbəyə öyrətmək;

- tələbə həyatının və dövlətin gənclər siyasətinin müxtəlif cəhətləri ilə tələbə kollektivini, rəhbərliyi və müəllimləri məlumatlandırmaq;

- tələbə kollektivinin, kolleclərdəki qrupların, kursların, şöbələrin sıx birliyinə nail olmaq;

- hər bir tələbənin dəyərli olduğunu qəbul etmək;

- gənclər təşkilatı və digər ictimai birliklərlə əməkdaşlığa nail olmaq;

- tələbə özünüidarə orqanlarının fəaliyyətinə pedaqoji rəhbərliyi həyata keçirmək və s.

Qabaqcıl kolleclərdə tələbə özünüidarəsinin strukturu və formaları gənclərin özlərinin hüquqi təminatları nəzərə alınaraq formalaşdırılır. Özünütəhlil, özünüqiymətləndirmə, özünütənqid, özünüyönəltmə özünüidarədə başlıca yer tutur.

Özünüidarə zamanı diqqət aşağıdakı cəhətlərə istiqamətlənir: kollektivin fəaliyyətinin planlaşdırılması; bu fəaliyyətin təşkili, öz işini təhlil etmək; görülmüş işlərə yekun vurulması və s.

Praktik təcrübənin təhlili tərbiyə işinin xarakterinin başlıca əlamətlərini - idarəetmənin və özünüidarənin necə təşkil olunduğunu müəyyən etməyə imkan verdi.

Tələbə özünüidarəsi zamanı tərbiyə prosesi xarakterinə görə fərqlənir, aşağıdakı məsələlər diqqət mərkəzinə gəlirdi:

- könüllülük; demokratiklik; humanistlik; sosial cəhət; yaradıcı cəhət; müxtəlif variantlıq; müstəqillik və s.

Tələbə özünüidarə orqanlarının təşkili zamanı könüllülük prinsipinə xüsusilə fikir verilir. Bu, bir həqiqətdir ki, bu və ya digər fəaliyyət, o cümlədən sosial fəaliyyət zamanı hər bir tələbədə, pedaqoji kollektivin hər bir üzvündə özünü təkmilləşdirmək, öz bacarığını, qabiliyyətini, istedadını nümayiş etdirmək, öz fəaliyyətlərini yüksək mənəvi dəyərlərə əsasən qurmaq, nümunəvi davranış, rəftar və ünsiyyət nümunəsi göstərmək tələbatı və arzusu olur. Bunu əsas götürərək, tələbələrdə kollektiv üzvlərinə hörmətli münasibət tərbiyələndirmək, bu təməl üzərində yoldaşlıq və dostluq münasibətlərini möhkəmləndirmək mümkündür. Bu, özünüidarənin əsas vəzifələrindən biridir.

Özünüidarə zamanı hər bir tələbə oğlan və qızın, kollektivin və azlıqda qalanların maraqları və istəkləri, tələbatları öyrənilir, ümumi razılığa gəlinir. Özünüidarə tələbə kollektivində onun hər bir üzvünün müdafiə olunmaq mühitini formalaşdırır, gənclərin öz münasibətlərini şəxsiyyətlərarası qarşılıqlı münasibətlərin tələbləri əsasında qurmalarına şərait yaradır. Bu münasibətlər hər bir tələbəni kamil şəxsiyyət kimi qəbul edilməsinə və onun təkrarolunmazlığının həyata keçirilməsinə imkan verir.

Özünüidarə fəaliyyətinin səmərəliliyinin artırılması və genişləndirilməsi, onun işinə başqa tələbələrin də cəlb edilməsi, vəzifələrin nisbətən mürəkkəbləşdirilməsi tərbiyə prosesinə innovasiya yanaşmalarının meydana gəlməsinə səbəb olur.

Qabaqcıl orta ixtisas məktəblərində özünüidarə orqanlarının fəaliyyətində tələbə oğlan və qızların hüquq və vəzifələrinin həyata keçirilməsi təmin olunurdu. Hüquq və vəzifələr mövcud normativ sənədlərə əsasən meydana gəlirdi. Həmin sənədlərə aid idi: Uşaq hüquqları üzrə Cenevrə Bəyannaməsi (1959), BMT-nin uşaq hüquqları Bəyannaməsi (1959), BMT-nin uşaq hüquqları haqqında Konvensiyası (*BMT-nin Baş Məclisinin 44-cü sessiyasında 20 noyabr 1989-cu il tarixində qəbul edilib*), Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının qanunu (1998), "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu (2009).

"Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının qanunu"nun "Qanunun təsir dairəsi" adlanan birinci maddəsində d deyilir: "Uşaqların bu Qanunda nəzərdə tutulmuş hüquqları və vəzifələri 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən hər bir şəxsə aid edilir" (116).

BMT-nin Baş Məclisinin 20 noyabr 1989-cu il tarixli 44-cü sessiyasında qəbul edilmiş "Uşaq hüquqları haqqında Konvensiyada" da belə fikir səslənir: "

"Hər bir insan 18 yaşına çatanadək bu Konvensiyanın məqsədləri üçün uşaq sayılır, bir şərtlə ki, həmin uşaq barəsində tətbiq edilən qanuna görə o, yetkinlik yaşına daha əvvəl çatmış olmasın" (4).

Orta ixtisas məktəblərində elə tələbələr arasında da elə tələbələr vardır ki, onlar hələ 18 yaşına çatmamışlar. Bəziləri doqquzuncu sinfi bitirəndən sonra kolleclərə qəbul olunmamışlar. Hətta XI sinfi bitirib orta ixtisas məktəblərində təhsil alanlarının bəziləri də hələ on səkkiz yaşına çatmayıblar.

Ona görə də hesab etmək olar ki, **"**Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının qanunu"nun (4) da, BMT-nin "Uşaq hüquqları haqqında Konvensiya"nın (5) da müəyyən etdiyi yaş kollec tələbələrinə də aiddir.

Azərbaycan Respublikasının Prezidentinin 19 may 1998-ci ildə təsdiq etdiyi " Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının qanunu"nda deyilir: "Bu Qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının,

digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir" (4).

Qanunun beşinci maddəsi "Uşaq mənafelərinin üstünlüyü" adlanır. Həmin maddə nəzərdə tutur ki, "Dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar. Azərbaycan Respublikasının normativ hüquqi aktları və müvafiq orqanların qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər gətirməməlidir" (4).

Qanunda uşaq və yeniyetmələr bir çox hüquqlar verilməklə yanaşı onların əsas vəzifələrinə də aydınlıq gətirilir. Oxuyuruq: "Cəmiyyətdə davranış qaydalarına əməl etmək, Azərbaycan Respublikasının dövlət rəmzlərinə bələd olmaq, biliklərə yiyələnmək, özünü faydalı fəaliyyətə hazırlamaq, valideynlərə, digər vətəndaşların hüquq və mənafelərinə, öz xalqının və başqa xalqların ən ənənələrinə və mədəni sərvətlərinə hörmətlə yanaşmaq, tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumaq və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək uşağın borcudur. Bu vəzifələrin uşaq tərəfindən dərk edilməsinə və icrasına valideynlərin, müvafiq orqanların və təhsil müəssisələrinin uşaqlar arasında izahat və təbliğat aparmaları yolu ilə nail olunur" (4).

Sənədlərə əsasən, hər bir tələbə özünün ölkəyə, millətə məxsusluğundan asılı olmayaraq, müəyyən hüquqlara və vəzifələrə malikdir. Beynəlxalq sənədlər beynəlxalq hüquq normaları statusuna malik olaraq, uşaqların hüquqlarını diqqət mərkəzinə gətirir. Bu hüquq: uşağın bütün dünyada rifahına; uşağın azadlıqlarının təmin olunmasına və onun ləyaqətinə hörməti; cəmiyyətdə tam dəyərli və səmərəli həyat üçün uşağa lazım olan əsasların formalaşdırılmasını; qabiliyyətlərin tam

nümayiş etdirilməsi üçün şəraitin yaradılmasını nəzərdə tutur.

Haqqında danışılan sənədlər uşaqlara öz fərdiyyətini mühafizə etmək, öz fikrini ifadə etmək, vicdan və din azadlığı; assosiasiyalar yaratmaq; bütün zorakılıq formalarından müdafiə olunmaq; informasiyanı, şifahi, yazılı, yaxud çap formasında ideyaları axtarmaq, qəbul etmək və ötürmək azadlığı elan edir.

Özünüidarə orqanlarının fəaliyyətində tələbələrin sosial müdafiəsi öncül yer tutmalıdır. Avtoritar rəhbərlik üslubundan demokratik rəhbərlik üslubuna keçmək tələb olunur ki, bu tələb eksperimentə cəlb edilmiş kolleclərdə nəzərə alınırdı. Bu orta ixtisas məktəblərində özünüidarə orqanlarının fəaliyyətin şəxsiyyətyönlü xarakter daşıyırdı. Şəxsiyyətyönlü fəaliyyət kollektivdə hər bir tələbənin əhval-ruhiyyəsinin, tələbatlarının, meyillərinin, maraqlarının nəzərə alınmasını zərurətə çevirir. Qabaqcıl kolleclərdə kollektivin həyat fəaliyyətində münasibətlərin humanistləşdirilməsi qarşıya məqsəd kimi qoyulur.

Hazırda sosial vəziyyət belədir ki, kollec tələbələri uşaqların və yeniyetmələrə qayğı və mərhəmətdən yan keçə bilməz. Bundan başqa, özünüidarə orqanlarının fəaliyyətinin mühüm vəzifələrindən biri də çətin vəziyyətlərdə olan, özünü kollektivdə narahat hiss edən, davranışında kənaraçıxmalar olan, sağlam olmayan həyat tərzi keçirən tələbələrə köməyin göstərilməsi məsələsidir.

Yeni pedaqoji şəraitində də özünüidarə təhsil-tərbiyə prosesində layiqli yer tutur və yeniyetmə və gənclərin fəal həyat mövqeyinin formalaşdırılmasının mühüm şərti kimi diqqət mərkəzinə gəlir. Özünüidarə orqanlarının fəaliyyətinin müvəffəqiyyəti heç də yalnız ayrı-ayrı tədbirlərin və işlərin sayı ilə müəyyən olunmur. Başlıca məsələ tələbə kollektivində sağlam psixoloji v. mənəvi atmosferin bərqərar olmasındadır.

Tələbə özünüidarəsinin müsbət təcrübəsindən görünür ki, qabaqcıl kolleclərinin öz devizi, andı, ləyaqət və şərəf məcəlləsi, qanunları və qaydaları mövcuddur. Tələbə özünüidarəsinin inkişafı tələb edir ki, onun üzvlərinin sayı get-gedə artsın. Bu aşağıdakı şərtlər daxilində reallaşır:

- kollektivlərin fəaliyyət sahəsinin genişləndirilməsi;
- özünüidarə orqanlarının hüquq və vəzifələrinin genişləndirilməsi;
- digər kollektivlərlə əlaqələrin genişləndirilməsi;
- tələbələrin təşkilatçılıq funksiyalarının yerinə yetirilməsinə cəlbedilmə üsullarının dəyişilməsi;
- kollektivdə münasibətlərin xarakterinin dəyişilməsi;

- kollektivin fəaliyyətinin təşkilində müəllimlərin mövqeyinin dəyişilməsi;

İntizam kimi özünüidarə də böyüklərin və yeniyetmə və gənclərin böyük birgə işinin nəticəsidir. Özünüidarənin baş tutması üçün tələbələrin mühakimələrinin və davranışlarının müstəqilliklərini təmin edirik, onlarda işə girişmək, öz həyatını dəyişmək arzusu oyadırıq. Bütün bunlar onlarda özünüidarəyə tələbat yaradır.

Tələbə özünüidarə orqanları öz fəaliyyətlərini formalaşdırılmış bölmələrin vasitəsiılə həyata keçirirlər.

1. Mədəni-kütləvi bölmə. 2. İnformasiya bölməsi. 3. İdman və sağlamlıq bölməsi. 4. Tələbə yaradıcılıq laboratoriyası. 5. Tələbə təhlükəsizlik xidməti bölməsi. 6. Kuratorluq bölməsi. 7. Təşkilati bölmə. 8. Kargüzarlıq bölməsi.

Tədqiqatdan görünür ki, kollecin tələbə özünüidarəsi təhsilalanların sosial fəallığının formalaşdırılmasının mühüm vasitəsidir. Özünüidarə isə xüsusi orqanlara malik olmalıdır. Onların qarşısında konkret məqsəd, bu məqsəddən irəli gələn vəzifələr durur.

**Problemin aktuallığı.** Tələbə özünüidarəsinin təşkilinə və səmərəli fəaliyyətinə lazımi şərait yaratmaq ali təhsil müəssisələrinin ümdə vəzifələrinə daxildir. Tələbə özünüidarəsində iştirak edən tələbəgənclərdə sosial fəallıq yaranır və inkişaf edir.

**Problemin yeniliyi.** Tələbə özünüidarəsinə sosial fəallığın formalaşdırılmasının vasitəsi kimi yanaşılır.

**Problemin praktik əhəmiyyəti.** Tələbə özünüidarəsinə sosial fəallığın formalaşdırılması sahəsində ali təhsil müəssisələrinin pedaqoji kollektivlərinə öz köməyini göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan dilinin izahlı lüğəti", 4 cilddə, 3-cü cild. Bakı: Şərq-Qərb, 2006.
2. Azərbaycan dilinin izahlı lüğəti", 4 cilddə, 4-cü cild. Bakı: Şərq-Qərb, 2006.
3. Makarenko A.S. Valideynlər üçün kitab. Bakı: Azərnəşr, 1992.
4. Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının qanunu. Azərbaycan Respublikasının Prezidenti 19 may 1998-ci ildə təsdiq etmişdir http://www.migration.gov.az/images/pdf/2b42947a6b61fda33655fc1a71c61b61.pdf
5. "Uşaq hüquqları haqqında" BMT-nin Konvensiyası.


**Р.М. Алиева**

## СТУДЕНЧЕСКОЕ САМОУПРАВЛЕНИЕ КАК СРЕДСТВО ФОРМИРОВАНИЯ СОЦИАЛЬНОЙ АКТИВНОСТИ


***РЕЗЮМЕ***

Формирование социальной активности студентов средних специальных школ требует, чтобы эта работа учитывала самостоятельность, инициативность, организационные навыки, талант, и самоуправление обучаемых. В этой области важную роль играет студенческое самоуправление. В статье студенческое самоуправление рассматривается как средство социальной активности. Статья посвящена задачам студенческого самоуправления, принципам функционирования и ряду особенностей. В статье рассматриваются 15 принципов.


**R.M. Aliyeva**

## STUDENT SELF-GOVERNMENT AS A MEANS OF FORMING SOCIAL ACTIVITY


***SUMMARY***

The formation of social activity of students in secondary special schools requires that this work take into account the independence, initiative, organizational skills, talent, and self-management of trainees. Student self-government plays an important role in this area. In the article, student self-government is seen as a means of social activity. The article is devoted to the tasks of student self-government, to the principles of functioning and to a number of features. The article considers 15 principles.


**Redaksiyaya daxil olub:** 19.02.2018